Ən çox oxunan qəzet

❒ № 87 (4782), 2018-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

16 may (çərşənbə)

www.sherg.az

## Şagird məktəbdə öldü



**Biləsuvarda məktəbdə ölüm hadisəsi baş verib. Hadisə rayonun Dövrüşlü kəndində qeydə alınıb.**

Rayonun Amankənd kənd sakini, 2006-cı il təvəllüdlü Əlyar Ürfan oğlu Hüseynli məktəbdən çıxmaq istəyərkən qəflətən halı pisləşib, daha sonra isə o, vəfat edib.

(Səh.9)

## Uşaqlar zərərli informasiyalardan qorunacaq

Qanun layihəsi komitə iclasında müzakirəyə çıxarıldı



**Ötən gün Milli Məclisin Ailə, qadın və uşaq komitəsinin iclası keçirilib.** Toplantıda yeni hazırlanan "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanun layihəsi müzakirəyə çıxarılıb. Layihə haqqında komitə sədri Aqiyə Naxçıvanlı məlumat verib.

(Səh.7)



## Ankarada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd olunub

Əli Həsənov: "Müstəqilliyimizin əzmlə qorunması Ulu öndərlərimizin ruhunu şad edir"

**Azərbaycanın Türkiyədəki səfirliyi Ankaradakı Heydər Əliyev Parkında Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrimizin yaranmasının 100 illiyi münasibətilə təntənəli mərasim təşkil edib.**

Mərasimdə Azərbaycan və Türkiyədən olan rəsmi şəxslər, generallar, diplomatlar, deputatlar, görkəmli ziyalılar, qardaş ölkə ictimaiyyətinin tanınmış simaları, qazilər, bu ölkədə yaşayan, işləyən və təhsil alan azərbaycanlılar, müdavimlərimiz iştirak ediblər.

(Səh.3)

## Maksimum 2 dəqiqə çəkir

"ASAN Viza" terminalları vasitəsilə əcnəbilərə vizaların verilməsinə başlanılıb



Mayın 15-dən etibarən "ASAN Viza" özünəxidmət terminalları vasitəsilə Heydər Əliyev Beynəlxalq Aeroportunda əcnəbilərə vizaların verilməsinə başlanılıb.

(Səh.2)

# Azərbaycan aktiv danışıqlara hazırdır




Həmsədrlər Ermənistanın yeni rəhbərliyi ilə iyunda görüşəcək

**ATƏT-in Minsk qrup həmsədrləri Parisdə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovla görüşün yekunlarına dair bəyanat yayıblar.**

Bəyanatda bildirilir ki, görüşdə sülh prosesinin irəli aparılmasının mümkün variantları müzakirə edilib.

(Səh.4)

Günün içindən ● Günün içindən | Günün içindən ● Günün içindən



## Şeyx axund və imamlara xəbərdarlıq etdi

"Oruclaq vaxtı iftardan əvvəl imkanlı adamların məclislərinə qatılanlar cəzalandırılacaq"

**Dünən Qafqaz Müsəlmanlari İdarəsinin Qazılar Şurası Ramazan ayı münasibətilə fətva verib.**

QMİ əvvəli rəhmət, ortası məğfirət, sonu isə Cənnət müjdəsi olan mübarək orucluğun başlanması münasibəti ilə dünya və ölkə müsəlmanlarını təbrik edib.

(Səh.5)



## Qüds ölüm-qalım məsələsidir

# ABŞ cavab verəcək

Səh.9)